**Ə.X.Nuriyev**

**UOT:338.45; JEL: L19.**

# Azərbaycanda sənayenin müasir ərazi təşkili formalarının inkişafı problemləri

***Xülasə***
*Məqalədə sənayenin müasir ərazi təşkili formalarının (texnopark, sənaye parkı, sənaye zonası, sənaye məhəlləsi) müəssisənin ayrılıqda yerləşməsinə nisbətən iqtisadi cəhətdən səmərəli olduğu və dövlət tərəfindən tənzimlənməsinin zəruriliyi qeyd olunur. Bunlarla bərabər sənayenin ərazi təşkilinin müasir formalarının inkişafı və respublikada səmərəli yerləşdirilməsi strategiyasının işlənib hazırlanmasının vacibliyi əsaslandırılır.*
***Açar sözlər:*** *texnopark, sənaye qovşağı, sənaye məhəlləsi, sənaye potensialını artırmaq, mühüm vasitəyə çevrilə bilər, sənayenin məkan mərkəzləşməsi.*

**Giriş**

Sənayenin müasir ərazi təşkili formaları dedikdə biz sənaye parkları, texnoparklar (klasterlər) sənaye zona və mərhələlərini nəzərdə tuturuq. Müasir kapitalizm dünyasında sənayenin ərazi təşkilinin bu formaları sürətlə inkişaf edir və ayrılıqda müəssisələrin yerləşməsinə nisbətən böyük iqtisadi səmərə verirlər. Eyni zamanda sənayenin ərazi təşkilinin bu səmərəli formalarının idarə olunması və inkişafında özünə xas olan problemlər də ortaya çıxır. Respublikamızda sənayenin ərazi təşkilinin bu mütərəqqi formaları yenicə inkişafa başlamışdır. Bu formaların ərazi təşkili və inkişafında həm nəzəri, həm də praktiki baxımdan problemlər olduğu şübhəsizdir.

**Sənayenin müasir ərazi təşkili formalarının səmərəlilik mənbələri**

Sənaye müəssisələrinin məkan mərkəzləşməsi formalarının, onların ayrılıqda yerləşməsinə nisbətən iqtisadi cəhətdən böyük üstünlüyə malik olmasını F.Engels hələ təqribən bir əsr yarım bundan əvvəl göstərmişdir. Sonralar A.Veber, M.Florens, Y.İzard kimi burjua mütəxəssisləri kapitalizm şəraitində sənaye aqlomerasiyalarının fərdi müəssisələrə nisbətən "iqtisadi üstünlüklərini kapitalizm cəmiyyətinin yaratdığı dünyagörüşü çərçivəsində təhlil etmiş, mümkün olan hallarda hesablamışlar. Sovet dövründə sənayenin məkan mərkəzləşməsi formalarının (sənaye qovşaqları, sənaye mərkəzləri, ərazi sənaye istehsal kompleksləri və sənaye məntəqələri) bütün müttəfiq respublikalarda onlarla layihəsi hazırlanmış və həyata keçirilmişdir. Məsələn, Azərbaycanda Sumqayıt, Salyan, Gəncə (şimal-şərq), Ağdam (cənub-şərq), Bakı (şimal-şərq) və i.a. sənaye qovşaqlarının formalaşması layihələri hazırlanmış, onların bütün texniki-iqtisadi göstəriciləri, o cümlədən iqtisadi səmərəlilik göstəriciləri hesablanmış və onların tikintisi əsasən həyata keçirilmişdir. Lakin müstəqillik ərəfəsində və müstəqilliyin ilk illərində bu qovşaqlar və sənaye mərkəzləri müxtəlif səbəblərdən fəaliyyətini dayandırmış, sənaye potensialı dağılmışdır.

Təcrübə göstərir ki, sənayenin məkan mərkəzləşməsi formaları düzgün təşkil edildiyi şəraitdə əsasən kapital qoyuluşuna qənaət hesabına böyük iqtisadi səmərə verir. Belə ki, sənayenin məkan mərkəzləşməsi nəticəsində hər bir müəssisə üçün ayrılıqda nəqliyyat yolu çəkmək, dəmir yol stansiyası, körpü, məhsulun saxlanması üçün anbar kimi xidmət müəssisələri tikmək zərurəti aradan qalxır. Bunların hamısına və ya bir neçəsinə birlikdə xidmət müəssisəsinin tikilməsi belə, tikinti xərclərinə qənaətə səbəb olur. Çox zaman nisbətən yaxın məsafədə yerləşmiş müəssisələrə eyni boru-kəmər nəqliyyatı, elektrik xəttləri, rabitə vasitələri, yükləyən-yükboşaldan vasitələr, işçilərə sağlamlıq, təhsil və məişət müəssisələri



© Ə.X.Nuriyev AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, i.e.d.professor
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

xidmət göstərir. Son nəticədə müəssisələrin tikintisi və istismarı xərclərinə qənaət olunur. Digər tərəfdən, müəssisələrdə boş dayanma hallarını azaltmağa, bazar problemini kollektiv formada həll etməyə, təcrübə mübadiləsi keçirməyə, idarə etmədə qabaqcıl təcrübəni tətbiq etməyə şərait yaranır. Eyni zamanda, bunun üçün çalışmaq lazımdır ki, sənayenin ərazi təşkilinin bu formalarının hər birində texnoloji proseslərin və xammalın emalının ardıcılığı baxımından bir-birini qarşılıqlı surətdə tamamlayan, kişi və qadın əmək ehtiyatlarından səmərəli istifadəyə, istehsalın ictimai təşkili formalarının geniş inkişafına şərait yaradan müəssisələr planauyğun surətdə bu və ya digər dərəcədə toplansın.

**Bu formaların üstünlüklərinin reallaşmasında olan çətinliklər və onların aradan qaldırılması problemləri**

Adətən, yüngül, yeyinti, metallurqiya-maşınqayırma, kimya sənaye sahələrində müəssisələrin bu formalarda ərazi təşkilinə daha çox imkan və tələbat vardır. Bu sahələrdə planauyğunluq və bir-birini qarşılıqlı surətdə tamamlama nəzərdə tutulan qənaət mənbələrini aşkara çıxarmağa və istifadə etməyə şərait yaradır. Klasterlər (texnoparklar, sənaye parkları, sənaye məhəllələri və zonaları) düzgün təşkil olunduğu şəraitdə kiçik, orta, böyük sahibkarların işini bir mərkəzdə səmərəli əlaqələndirmək, regionların və ölkənin dünya bazarlarında rəqabət qabiliyyətini yüksəltmək imkanı yaranır. Məhz bu səbəblərdən kapitalizm cəmiyyətində maşın tətbiqinə əsaslanan sənaye inkişaf etməyə başladığı vaxtlardan kapital qoyuluşuna qənaət etmək, istehsal və satış xərclərini nisbətən azaltmaq və yüksək mənfəət götürmək məqsədilə kapitalistlər sənaye müəssisələrinin ərazi təmərküzləşməsi formalarını inkişaf etdirməyə başlamışlar. XX əsrin ortalarından sənayenin ərazi təmərküzləşməsində texnoloji, xammalın emalının ardıcıllığı baxımından bir-birini qarşılıqlı surətdə tamamlayan müəssisələr bir yaşayış məkanında daha çox toplanmağa başlamışdır.



Bu gün dünya praktikasında sənaye parkları, texnoparklar, sənaye zonaları və məhəllələri sənayenin ərazi təşkilinin başlıca formaları kimi geniş yayılmış və inkişaf etmişdir. Lakin sənayenin ərazi təşkilinin bu mütərəqqi formaları keçmiş sovetlər ittifaqına daxil olan və hazırda müstəqil dövlətlərdə yenicə inkişafa başlamışdır. İnkişaf etmiş demokratik dövlətlərin təcrübəsindən göründüyü kimi, bunların uzun müddətli inkişafı isə müasir sənaye mərkəzləri, sənaye aqlomerasiyaları, sənaye qovşaqlarının formalaşması ilə nəticələnəcəkdir. Başqa sözlə bu gün tikintisinə başlanan sənaye parkı, texnopark, sənaye zonası əgər bunlar üçün seçim düzgün edilibsə, yaxın və ya nisbətən uzaq gələcəkdə onların yerləşdiyi ərazidə böyük sənaye mərkəzinin, sənaye qovşaq və ya aqlomerasiyasının formalaşması deməkdir. Bütün bunlar sənayenin məkan mərkəzləşməsinin bu mütərəqqi formalarını təşkil edərkən çox saylı problemləri həll etmək zərurəti yaradır. Sovet dövründə sənaye qovşaqları, sənaye kompleksləri və mərkəzləri, qarşılıqlı əlaqədə olaraq inkişaf etmişdi. Onlar ictimai dövlət mülkiyyətinə və dövlət tərəfindən mərkəzləşmiş qaydada idarə etməyə əsaslanırdı. Lakin demokratik cəmiyyətdə texnoparklar, sənaye parkları, sənaye zonaları və məhəllələri inkişaf edib iri sənaye qovşaqları, sənaye mərkəzləri formasını aldıqda belə müəssisələr müxtəlif mülkiyyət formalarına əsaslandığından sovet dövründə və müasir cəmiyyətdə bunların ərazi təşkili və fəaliyyət prinsiplərində əsaslı fərqlər vardır. Demokratik cəmiyyətdə belə müəssisələrin tikintisi və fəaliyyəti prosesində gözlənilməz çətinliklər, mənafe uyğunsuzluqları ortaya çıxa və təsərrüfat fəaliyyətini çətinləşdirə bilər. Heç də təsadüfü deyil ki, hələ keçən əsrin 50-70-ci illərində texnopark və sənaye parklarının, sənaye zonaları və məhəllələrinin təhlili ilə məşğul olan alimlər bunların tikintisinin səmərəlilik dərəcəsinin hesablanmasının mümkünlüyünü qəbul etsələr də, fəaliyyəti zamanı müxtəlif, nəzərə alınması mümkün olmayan, və ya çətin olan problemlər qarşıya çıxdığına görə bu formaların bütövlükdə səmərəliliyini hesablamağın çətin olduğunu qeyd edirdilər. Şübhəsiz ki, belə vəziyyət müasir dövrdə özünü daha aydın göstərir. Bunlar Azərbaycan sənayesinin

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

gələcək inkişaf istiqamətlərini müəyyən edərkən və istehsal potensialını artırmaq üçün tədbirlər görərkən nəzərə alınmalıdır.

**Azərbaycanda problemin həllinə yanaşmanın xüsusiyyətləri**

Məlumdur ki, Azərbaycan demokratik cəmiyyətə keçid dövrü vəzifələrini müvəffəqiyyətlə yerinə yetirərək öz inkişafının yeni dövrünə-demokratik cəmiyyətin öz əsasları üzərində yüksək səviyyədə inkişafı və modernləşməsi dövrünə daxil olmuşdur. Bu dövrün başlıca vəzifəsi Azərbaycanı hərtərəfli inkişaf etdirmək, modernləşdirmək, zəngin və iqtisadi cəhətdən qüdrətli dövlətə çevirməkdən ibarətdir. Bu strateji vəzifənin icrasının başlıca yolu iqtisadiyyatı rəqabət qabiliyyətli inkişaf etdirmək və istehsal potensialını artırmaqdan ibarətdir. Istehsal potensialının artırılması Azərbaycanın hazırki inkişaf vəziyyətindən irəli gələn obyektiv vəzifədir. Cünki Respublikamızın istifadə olunan istehsal potensialı istifadəsi mümkün potensiala nisbətən aşağıdır. Burada isə sənaye sahəsində istifadə olunan potensialın artırılması vacib bir vəzifə kimi qarşıda durur. Bu vəzifəni hansı yollarla yerinə yetirmək, rəqabət qabiliyyətli sənaye istehsal potensialını necə artırmaq olar? Təbiidir ki, bunun üçün Azərbaycanda sənayenin tarixi inkişaf xüsusiyyətlərini və onun ərazi təşkili sahəsində dünyada və Azərbaycanda tarixən toplanmış mütərəqqi təcrübəni nəzərə almaq lazımdır. Bu da öz ifadəsini sənaye parkları, texnoparklar, sənaye zonaları və məhəllərinin yaranmasında tapmaqdadır. Bu proses regionların sosial-iqtisadi inkişafı ikinci Dövlət proqramının (2009-2013-cü illər) qarşıya qoyduğu vəzifələrə uyğun olaraq 2010-2011-ci illərdən başlanmışdır.

Sumqayıt şəhərində texnopark, kimya sənaye parkı, Balaxanıda məişət tullantılarını emal edən texnopark müvəffəqiyyətlə fəaliyyət göstərir. Sumqayıt Şəhər texnoparkında və Kimya Sənaye parkında 40-a qədər müxtəlif ölçülü müəssisə vardır. Mingəçevir, Hacıqabul şəhərlərində sənaye parkları, Salyan, Neftçala, Masallı şəhərlərində sənaye məhəlləsi və ya sənaye zonaları tikilməkdədir. Yəqin ki, Respublikamızda sənaye potensialını artırmaq, modernləşdirmək və səmərəli yerləşdirmək vasitəsi olmaqla müxtəlif şəhərlərdə perspektivdə yeni sənaye parkları, texnoparklar, sənaye zonası və məhəllələri də yaradılacaqdır.

Azərbaycan keçmişdə inkişaf etmiş sənaye sahələrini yeni texnoloji-texniki baza üzərində bərpa etməklə yanaşı, yeni sənaye sahələri yaratmalı və bunları texnoparklar, sənaye parkları, sənaye məhəlləsi və zonaları formasında Respublika ərazisində düzgün yerləşdirməlidir. Sənayenin ərazi təşkilinin bu mütərəqqi formalarının inkişafı Azərbaycanın müasir sənayesinin innovasiya yönümlü, rəqabət qabiliyyətli inkişafı və modernləşməsi üçün müstəsna əhəmiyyət kəsb edir. Sənayenin ərazi təşkilinin bu mütərəqqi formaları Respublika ərazisində düzgün yerləşdirildiyi və müvəffəqiyyətlə fəaliyyət göstərdiyi şəraitdə Azərbaycanda düzgün regionlara bölgü sisteminin həyata keçirilməsi, ərazi idarəetmənin düzgün təşkili və bütövlükdə məhsuldar qüvvələrin səmərəli ərazi təşkili, əhalinin məskunlaşması və istehsalın yerləşməsinin səmərəli regional sistemlərinin formalaşması və əmək ehtiyatlarından səmərəli istifadə etmək üçün mühüm vasitəyə çevrilə bilər.

**Nətcə**

Yaxın 15-20 ildə mövcud sahədə vəzifələri yerinə yetirmək, sənaye potensialını artırmaq və modernləşdirmək üçün aşağıdakılara diqqət artırılmalıdır: Sənayenin ərazi təmərküzləşməsinin bu mütərəqqi formalarının uzun müddətli inkişaf strateqiyasının işlənib hazırlanması. Bu zaman Respublikada məhsuldar qüvvələrin səmərəli yerləşməsi, o cümlədən inkişafına üstünlük verilən şəhərlərin düzgün müəyyən edilməsi və üstün sürətlə inkişafının nəzərdə tutulması və təmin edilməsi. Sənaye parkı, texnopark, sənaye məhəlləsi və zonalarında birinci növbədə xammal emalının, texnoloji proseslərin ardıcıllığı, qadın və kişi əmək ehtiyatlarından səmərəli istifadə baxımından bir-birini qarşılıqlı surətdə tamamlayan müəssisələrin yerləşdirilməsi. Sənayenin məkan mərkəzləşməsi formalarının yerləşməsi və



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

fəaliyyətinin təşkilində dövlətin, xüsusi sahibkarların və elmi qüvvələrin fəaliyyətinin əlaqələndirilməsi və Respublikanın, regionun mənafeyinə uyğun istiqamətə yönəldilməsi. Sənaye parkı, texnopark, sənaye zona və məhəlləsinə daxil olan müəssisələr arasındakı münasibətlərin dövlət tərəfindən tənzimlənməsi qaydalarının işlənib hazırlanması.

**Ədəbiyyat**

1. А.Е.Пробет. Вопросы размещения социалистической промышленности. Москва, издательство «Наука» 1971.
2.Ə.X.Nuriyev. Sənaye qovşağının formalaşmasının bəzi metodoloji məsələləri.(Azərb.EA-nın xəbərləri, iqdisadiyyat seriyası-1974, N3,səh.12-21
3.Ə.X.Nuriyev, M.Ə.Abdalova. İqtisadiyyatın dövlət tənzimlənməsinin təkmilləşməsi ətrafında düşüncələr, təklif və tövsiyyələr. Bakı, "Elm və bilik" 2019.
4.M. Abdalova. Azərbaycanda sənaye müəssisələrinin texnoloji modernləşməsi və texnologiya parklarının yaranması. AMEA-iqtisadiyyat institutu. Elmi əsərlər IV. Buraxılış, Bakı-2013 (səh.406-413)

***А.Х.Нуриев***

***Проблемы развития современной формы территориальной организации промышленности в Азербайджане.***

***Резюме***

*В статье объясняется преимущество современной формы (технопарк, промышленные парки, промышленные зоны и т.д.) территориальной организации промышленности в отношении отдельного размещения промышленных предприятий, обосновываются необходимости государственного регулирования формирования и развития этой формы территориальной организации промышленности. Помимо этого, обосновываются необходимости разработки стратегии формирования и развития современной формы территориальной организации промышленности в республике.*



***A.H.Nuriyev***

***Problems of development of modern forms of territorial organization of industry in Azerbaijan***

*The article emphasizes the need for modern forms of territorial organization of industry (technopark, industrial park, industrial zone, industrial neighborhood) to be economically, viable and regulated by the state rather than separately. At the same time, the importance of the development of modern forms of industry organization and the effective deployment strategy in the country justified.*

***Key words**: Technopark, industrial junction, industrial neighborhood, increase of industrial potentials, industry centering*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub:13.06.2019.***
***Çapa qəbul olunub:17.06.2019.***

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az